# Aktyor Miraslan Ağayev:

# "Tamaşaçıların isti nəfəsi üçün darıxmışam"

*Əvvəllər də çalışdığı sənət ocağında yaratdığı maraqlı obrazlarla tamaşaçıların qəlbinə yol tapmağı bacaran Miraslan Ağayev "Günəşim ol" teleserialında ifa etdiyi Qafur rolundan sonra daha da populyarlaşdı. Özüm də dəfələrlə şahidi olmuşam:yolda, küçədə, xüsusən məktəblilər, onu görən kimi "Odur ey, Qafur əmi gəlir" deyərək, aktyordan onlarla şəkil çəkdirməyi xahiş edirdilər. O isə heç kimin könlünü qırmayaraq hər kəslə həvəslə selfi çəkdirməyə razılıq verirdi... Beləliklə, həmsöhbətim Lənkəran Dövlət Dram Teatrının yüksək dərəcəli aktyoru Miraslan Ağayevdir.*

**-Miri, bəlkə söhbətimizə özün barədə məlumatla başlayaq?**

-Məmnuniyyətlə. 18 mart 1958-ci ildə Lerik rayonunun Tikəband kəndində anadan olmuşam. 1975-ci ildə Lənkəran şəhər 2 saylı orta məktəbi bitirdikdən sonra Lənkəran Dövlət Dram Teatrında səhnə maşinisti kimi əmək fəaliyyətinə başlamış, həmçinin teatrın tamaşalarında epizodik rollarda istedadımı sınamışam. 1976-78-ci illərdə hərbi xidmət keçmiş, ordudan tərxis olunduqdan sonra isə yenidən teatrda yardımçı aktyor ştatında işə qəbul olunmuşam.

1987-1992-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində ali təhsil almışam. 1975-ci ildən hazırki dövrə kimi Lənkəran Dövlət Dram Teatrının truppasında aktyor vəzifəsində çalışıram. Ötən müddət ərzində sənət məbədgahının səhnəsində bir çox rollar oynamışam. İfa etdiyim Əbdüləli bəy ("Sevil", C.Cabbarlı), Hacı Baxşəli ("Ölülər", C.Məmmədquluzadə), Molla Həmid ("Molla İbrahim Xəlil", M.F.Axundov), Murtuz ("Uca dağ başında", V.Səmədoğlu), Pollada ("Şeytanın oyunları", M.Xubai), Sərkərdə ("Vaqif", S.Vurğun), Bibo ("Çinari manifesti", A.Çxaedze), Polkovnik Lıskov ("Bir ovuc torpaq", H.Allahyarov), Kamal ("Mamoy kişinin yuxuları", V.Səmədoğlu), Sobokeviç ("Ölü canlar", N.Qoqol), Hatəm ("Əcnəbi kürəkən", M.Məmmədov), Vəkil ("Varlı qadın", Ə.Əmirli) Qastone ("Ruhlar", E.D.Filippo), Vəzir ("İlan Sultan", B.Beyzayi) və onlarla bu kimi obrazlar rəngarəng yaradıcılıq dəst - xəttimin parlaq nümunələrindən sayıla bilər.

Oynadığım səhnə əsərlərindən C.Məmmədquluzadənin "Ölülər" və Ü.Hacıbəyovun "Olanlardan-keçənlərdən" tamaşaları hazırda Azərbaycan Dövlət Televiziyasının "Qızıl Fondu"nda saxlanılmaqdadır. Təvazökarlıqdan uzaq olsa da deməliyəm ki, mən həmçinin "Durnalar qayıdanda" (Əsgər), "Susmuş vicdan" (Deputat), "Sevginin göz yaşları" (Ata), "Günəşim ol" (Qafur) və digər bədii televiziya filmlərində yaddaqalan rollarda çəkilmişəm.





Teatrda çalışdığım müddətdə Lənkəranın ictimai və mədəni həyatında da fəallıq göstərmiş, dövlət əhəmiyyətli tədbirlərdə nümayiş etdirilən teatrlaşdırılmış tamaşalarda, ədəbi-bədii kompozisiyalarda çıxış etmişəm.

İctimai fəallığım nəzərə alınaraq mənə Teatr Həmkarlar Təşkilatı İdarə Heyətinin sədri kimi məsul vəzifə həvalə olunmuşdur.

Bundan əlavə, əməyim dəfələrlə teatr rəhbərliyi tərəfindən təşəkkürnamə və fəxri fərmanla dəyərləndirilmişdir.

Əlbəttə, sənətdə qazandığım bütün uğurlara görə ustadlarım Böyükxanım Əliyevaya, Qabil Quliyevə. Elşad Zeynalova, Baba Rzayevə. Əli Salahlıya, Təvəkkül Əliyevə, Eynəli Nurullayevə və digərlərinə sonsuz minnətdarlığımı ifadə etmək yerinə düşərdi. Adlarını çəkdiklərim sənətçilərdən dünyasını dəyişənlərə Allahdan rəhmət, yaşayanlara isə cansağlığı diləyirəm.

**-Miri, teatrınızda vəziyyət nə yerdədir? Koronavirus (KOVİD-19) pandemiyası ilə əlaqədar tətbiq olunmuş karantin dövründə yaradıcılıq fəaliyyətinizi necə qurmusunuz?**

-Yeri gəlmişkən bildirim ki, Lənkəranda professional teatrın tarixi XIX əsrin ortalarına təsadüf edir. Milli Elmlər Akademiyasının teatr bölməsinin təqdimatına əsasən Mədəniyyət Nazirliyi Lənkəran Dövlət Dram Teatrının yaşının 1891-ci ilin 18 yanvarında N.B.Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" əsəri əsasında səhnələşdirilmiş "Oddan alova" komediyası ilə təsdiqləndiyi barədə qərar çıxarmışdır. Ötən əsrin 30-40-cı illərində Lənkəranda professional teatr fəaliyyət göstərmişdir. 1973-cü ilin dekabrında isə ümummilli lider Heydər Əliyevin xeyir-duası ilə Lənkəran Dövlət Dram Teatrının fəaliyyəti bərpa olunmuşdur.

Ötən dövr ərzində teatrımız bir çox uğurlara imza atmış, dəfələrlə Özbəkistan, Türkiyə. İran, Gürcüstan və digər xarici ölkələrdə keçirilən festivallarda, nüfuzlu sənət yarışmalarında Azərbaycanı ləyaqətlə təmsil etmişdir. Bu günün özündə də yüksək şövqlə çalışır, tamaşaçıların estetik zövqünü oxşaya bilən, günün nəbzini tutan əsərləri səhnədə canlandırmağa səy göstəririk.

Özünüz də qeyd etdiyiniz kimi, bir neçə aydır ki, bütün bəşəriyyət koronavirus pandemiyası ilə mübarizə aparır. Əksər ölkələrin çətin vəziyyətlə qarşılaşmalarına baxmayaraq, Azərbaycan prezidenti İlham Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində bu virus, Allaha şükür ki, respublikamızda ciddi fəsadlara səbəb ola bilməmişdir. Koronavirusla mübarizə istiqamətində ölkəmizdə vaxtında həyata keçirilən tədbirlər bütün dünyaya parlaq nümunə göstərilə bilər. Bu gün Azərbaycanda nəinki koronavirus pandemiyası ilə ciddi mübarizə aparılır, eyni zamanda əhalinin sosial rifah halının yaxşılaşdırılması istiqamətində mühüm tədbirlər görülür.



Respublikamızın digər konsert-tamaşa müəssisələri kimi Lənkəran Dövlət Dram Teatrı da öz fəaliyyətini mövcud karantin şəraitinin tələblərinə uyğun qurmuşdur. Bununla belə, biz heç də iş-gücümüzdən tamamilə təcrid olunmuşuq.

Teatr yaradıcılıq fəaliyyətini virtual və onlayn qaydada davam etdirməklə özünün "YouTube", "Facebook" və "İnstagram" səhifələrindən tamaşalarını qabaqcadan tərtib olunmuş repertuar planı əsasında vaxtaşırı təqdim edir. Biz həmçinin cari ilin repertuar planına daxil edilmiş fransız dramaturqu Marsel Berkye Marinyenin "Oğru" əsərinin onlayn məşqlərini aparırıq.

İnanın ki, tamaşaçılarımızın isti nəfəsi, sürəkli alqışları üçün yaman darıxmışıq. Ümid edirəm ki, istər ölkəmizdə, istərsə də bütün dünyada koronavirusla bağlı vəziyyət tezliklə qaydasına düşəcək, biz yenidən əvvəlki normal həyatımıza qayıdacağıq...

**Söhbətləşdi:**
**Ağaddin BABAYEV,**
**yazıçı-publisist.**
**Lənkəran**

Ədalət.- 2020.- 1 iyun. S. 8.